***Fizzə Qulu qızı Quliyeva***
*Naxçıvan Dövlət Universiteti*
E-mail: fizze25@mail.ru

# GƏMİQAYA QAYAÜSTÜ RƏSMLƏRİNDƏ HEYVAN OBRAZLARININ SEMANTİK MƏZMUNU

**Açar sözlər:** Gəmiqaya, Naxçıvan, rəsm, heyvan, keçi, ilan, əfsanə

**Ключевые слова:** Гемигая, Нахчыван, рисунки, рисунки животных, козел, змея, легенда

**Keywords:** Gemikaya, Nakhchivan, drawings, drawings of animals, trestle, dragon, legend

E.ə. IV-I minilliklərdə ulu əcdadlarımız tərəfindən yaradılan Gəmiqaya rəsmləri Naxçıvanın tunc dövrü mədəniyyətinin ayrılmaz tərkib hissəsidir. Rəsmlərin böyük əksəriyyəti Qapıcıq zirvəsinin cənub-qərb yamacındakı Qaranquş yaylağındakı saysız-hesabsız qaya parçaları üzərindədir (Baxşəliyev, 2004: 182). Bəzi tədqiqatçılar Gəmiqaya təsvirlərinin köçmə maldarlıqla bağlı olduğunu söyləsə də, tədqiqatçı Vəli Baxşəliyev bu rəsmlərin təkcə əkinçilik və maldarlıqla bağlı yaranmadığını insanların inancları ilə də bağlı olduğunu qeyd etmişdir (Baxşəliyev, 2004: 182). Tədqiqatçının fikrincə təsvir olunan yırtıcı heyvanların, balıq, ilan, həşərat təsvirlərinin maldarlıqla heç bir əlaqəsi yoxdur. Bu yerin müqəddəsləşdirilməsi, burada pir və ocaqlara rast gəlinməsi də bu fikri təsdiqləyir. Bu da Gəmiqaya ərazisində yaşayan tayfaların yaşam tərzi, məişəti ilə bağlı olmuşdur. Belə hesab edirik ki, qayaüstü təsvirlərdəki hər bir rəsmin müəyyən mənası olmuşdur. Rəsmlərin bir qisminin mənası qismən də olsa tədqiqatçılar tərəfindən öyrənilmişdir (Əliyev, 1993: 33).

Gəmiqaya rəsmlərində müxtəlif səpkili rəsmlərə rast gəlinir. Amma rəsmlər arasında heyvan obrazları üstünlük təşkil edir (Əliyev 1993:). Buradakı heyvan obrazlarını realist və fantastik olmaqla iki əsas qrupa ayırmaq olar. Rəsmlərin birində, fantastik heyvan tək buynuzlu, quyruğu spiral şəkilində belinə doğru əyilmiş keçi şəklində, yaxud aypara şəkilli uzun, buynuzlu gövdəsi olan pələng şəklində təsvir edilmişdir. Realist heyvan obrazlarından keçi, quş, maral, ilan, it, at, öküz, bəbir, iribuynuzlu ev heyvanları və. s daha çox təsvir olunmuşdur. Heyvan rəsmləri tək-tək, qoşa və sürü halında təsvir olunmuşdur. Yüzlərlə qaya parçları üzərində həkk olunmuş sxematik və realist heyvan rəsmləri siluet, cızma və qazıma üsulu ilə təsvir olunmuşdur. Hələ sirləri tam açılmamış Gəmiqaya petroqliflərinin bir qismi məhz döl və nəsil artımını, xeyir və şər qüvvələrin mübarizəsini, məhsuldarlığı, həyatın yeniləşməsini əks etdirir. Rəsmlərin sənətkarlıq üslubu həm sadə, həm də bir qədər də mürəkkəbdir. Texniki cəhətdən icrası ağır və əziyyətli olan qayalıqlar üzərində rəsmlərin həkk olunması o dövrdəki Gəmiqaya sənətkarlarının ustalığından xəbər verir. Arxeoloji tədqiqatlar göstərir ki, Azərbaycanda ibtidai incəsənət tunc dövründə, xüsusilə onun orta və son mərhələlərində özünün çiçəklənmə dövrünü keçirmişdir. Qədim incəsənətin bu yüksəliş mərhələsi Gilançay vadisindəki tunc dövrü abidələrində və xüsusilə Gəmiqaya petroqliflərində özünü daha parlaq şəkildə göstərmişdir (Əliyev, 2005: 40).

Gəmiqaya təsvirləri arasında keçi rəsmləri sayca üstünlük təşkil edir. Keçi rəsmləri iki cür təsvir edilmişdir. Birinci tipdəkilər sxematikdir (Şəkil 1, 1) və Naxçıvan boyalı qablarında da rast gəlinən kəpənəkşəkilli motivi xatırladır (Şəkil 1, 2), ikincilər isə realistikdir və keçi rəsmi olduğu kimi anatomik göstəriciləri ilə təsvir edilmişdir (Şəkil 1, 3).

Maraqlı cəhətlərdən biri də keçi rəsmlərində cins, yaş fərqinə də varılması və bu fərqlərin olduğu kimi rəsmlərə yansımasıdır (Şəkil 2). Dağ keçilərinin arxaya, belinin ortasına qədər əyilmiş uzun, yarımdairəvi buynuzlarla təsvir edilməsi onların erkək cinsdən olduğunu (Əliyev, 2005: 42) və Yer

üzündə Günəşi təmsil etməsi ilə bağlanmışdır. Buynuzlarının üstündə təsvir edilmiş çıxıntılar isə yaş bildirir (Əliyev, 1993: 30). Gəmiqayanın keçi obrazları ilə Qobustannın keçi obrazları arasında oxşarlıq çoxdur.




**Şəkil 1.** Gəmiqaya təsvirləri və boyalı qablar (Baxşəliyev, 2004)

Çox güman ki, Gəmiqayadakı keçilər də Qobustanda rast gəlinən bezoar keçiləridir. Gəmiqaya rəsmlərində heyvan təsvirlərinin bolluğu ərazidə yaşayan qədim tayfaların əsas məşğuliyyətlərindən birinin maldarlıq olduğunu göstərir.



**Şəkil 2.** Gəmiqayada keçi təsvirləri (Baxşəliyev, 2004)

Türk xalqlarının mifologiyasında keçi müqəddəs hesab edilmiş, ilahiləşdirilmişdir. Dəfn zamanı qəbrə keçi buynuzu qoyulmasına I Kültəpənin Eneolit təbəqəsində rastlanmışdır (Абибуллаев, 1982: 44)



**Şəkil 3.** Gəmiqayada qurd və keçi qarşıdurması (Baxşəliyev, 2004)

Gəmiqayadakı maraqlı təsvirlərdən biri də keçi ilə yırtıcı heyvanın-canavarın (qurdun) qarşı-qarşıya dayanması səhnəsidir (Şəkil 3). Bu sujetli təsvir xalq yaradıcılığı nümunələrində rast gəlinən və insanların əski inancları ilə bağlı olan qədim qurd ağzı bağlamaq ovsunu ilə əlaqədardır. Bu inanc daha çox maldarlıqla məşğul olan, dağlıq ərazilərdə yaşayan əhali arasında geniş yayılmışdır. Gəmiqaya təsvirində dalğavari xəttin bir ucunun düyünlənmiş təsvir edilməsi qurdun ağzının bağlanmasını, digər ucunun şaxələnməsi onun yolunun azdırılmasın, günəş simvolu olan dairə sübhün tez açılıb işığın doğması ilə keçinin səhər xilas olması inamını əks etdirir (Əliyev, 2005: 44). Bu ovsun qarşısında aciz qalan şeytan aradan çıxmağa məcbur olur. Ordubad rayonunda qurd ağzı bağlamaqla bağlı ovsunlar indiyədək qalmaqdadır. Canavarın keçiyə hücum səhnəsi Şahtaxtı küpəsi üzərində də aşkarlanmışdır. Tədqiqatlar göstərmişdir ki, bu adətin tarixi minilliklərə söykənmişdir.

Gəmiqayada bir çox qayalar üzərində təsvir edilmiş iribuynuzlu heyvan rəsmlərindən öküz, inək rəsmləri tək, kiçik sürü şəklində, ov səhnəsində, arabaya qoşulmuş vəziyyətdədir. Öküz təsvirlərini buynuzlarına görə fərqləndirmək olar. Bəziləri buynuzlarının aypara şəklində qarşı-qarşıya qabağa çıxmasına və qövsvari yuxarı qalxmasına görə bir-birindən fərqlənirlər (Şəkil 4). Öküz təsvirləri bəzən astral və mifoloji keçi təsvirləri ilə bir kompozisiyada verilmişdir. Öküz rəsmlərinin bəzilərinin çiyin hissəsi qabarıq-hürgüclü təsvir olunmuşdur. Bu təsvirlərə görə Naxçıvanda zebu öküz növünün yetişdirildiyini də söyləmək olar (Əliyev, 2005: 45).

Gəmiqayada rastlanan, tapınma obyekti olan öküz təsvirləri V.H.Əliyev tərəfindən Erkən Tunc dövrünə aid edilmişdir (Əliyev, 1993: 36). Məlum olduğu kimi, realist üslublu öküz təsvirlərinə Mezolit və Neolit dövrlərində bol şəkildə rast gəlinmiş və onlar tapınma obyekti olmuşdur. Şübhəsiz ki, öküz kultunun geniş yayılması onunla bağlı təsvirlərin də yaranmasına səbəb olmuşdur (Baxşəliyev, 2004: 225). Neolit və Mezolit dövrünə aid qayaüstü rəsmlərdə bunu aydın görmək olur. Tunc dövründə də öküz tapınma obyekti olumuşdur. Qeyd etmək lazımdır ki, əgər Mezolit və Neolit dövrü insanlarının rasionunu nümayiş etdirən heyvan sümükləri arasında öküz sümüklərinə rast gəlinmirdisə, Eneolit dövründən başlayaraq yaşayış məskənlərindən tapılan sümük qalıqları içərisində iribuynuzlu heyvan sümükləri artdığı müşahidə

olunur. Bu isə insanların inancında böyük yer tutumasına baxmayaraq öküz ətinin yeyildiyini göstərir. Tunc dövründə öküzə sitayiş ilə bərabər günəşə sitayiş də inkişaf etmişdi. Eneolit və Tunc dövrlərində günəşə sitayişin öküz kultunu üstələməyə başlamasını və hətta həmin dövrdə öküzün kəsilərək günəşə qurban verildiyini yazılı mənbələr də təsdiq etməkdədir. Bu baxımdan Şumer ədəbiyyatının şah əsəri hesab edilən "Bilqamıs dastanı"nda təsvir edilən bir olay deyilənlərə ən gözəl sübutdur (Tuncay, 2012: 7-9). Məlum olduğu kimi, öküz kultu Erkən Tunc dövründə Kür-Araz mədəniyyəti tayfaları arasında, xüsusilə, Naxçıvanda geniş yayılmışdır (Əliyev, 1993: 35-36).



**Şəkil 4.** Gəmiqayada öküz, keçi və astral rəsmlər (Fizzə Quliyeva)

O.H.Həbibullayevin aşkar etdiyi tapıntılar öküz kultunun Kür-Araz mdəniyyəti təbəqəsindən aşkar olunan çoxsaylı gil öküz fiqurları, habelə öküz fiquruna bənzədilən sitayiş qurğuları da bunu sübut edir.

Gəmiqayada ilan rəsmləri tək, qoşa və kompozisiyada təsvir edilmişdir. İlan rəsmləri dinamikliyi ilə seçilir (Şəkil 5, 1). Rəsmlərin bəziləri digər heyvanlarla yanaşı təsvir edilmişdir. Keçinin buynuzundan spiral şəklində uzanan ilan təsviri olduqca maraqlıdır (Şəkil 5, 2). İlanın keçi ilə birgə verilməsi çox güman ki, məhsuldarlığı simvolizə etmişdir. Gəmiqayada təsvir edilmiş ilan obrazının semantik məzmunu digər rəsmlərdə olduğu kimi müxtəlifdir. Əfsanələrdə ağ ilan və qara ilanla bağlı obrazlar, insanların ağ ilana kömək etməsi, ağ ilanı öldürməyin yasaq olması öz əksini tapmışdır (Azərbaycan Mifoloji Mətnləri, 1988: 136). İlan iki qüvvənin xeyirin və şərin simvolu olmuşdur. Naxçıvanın qədim tayfaları arasında ilana inam güclü olmuşdur. Məhz buna görədir ki, ilan qədim Naxçıvan tayfalarının totemidir. Bu inamın izlərinə təkcə qayaüstü rəsmlərdə deyil, həmçinin qədim gil qabların üzərində və bəzək əşyalarında rast gəlinir. İlan xaotik dünyanı təmsil edir. Onu görmək o biri dünyanı təmsil etdiyi üçün pis əlamətdir (İsmayıl, 2005: 19). Xaotik qüvvələrlə bağlı olan ilan həm də bərəkətin, bitki aləminin ağasıdır. İlan rəsmləri qədim Elamların və Misirlilərin təsəvvüründə məhsuldarlıq rəmzi hesab olunmuşdur. Qədim Naxçıvan folklor nümunələrində ilana inamı əks etdirən rəvayətlər hələ də xalqımız arasında yaşamaqdadır. Gilançay vadisində, Gəmiqayadan cənubda yerləşən İlandağla bağlı mifologiya xalqımızın mənəvi mədəniyyət tarixinin çox dəyərli səhifələridir. İlandağ əfsanəsi Şumer mənşəli əfsanə ilə də eyniləşdirilir. Əfsanədə adı çəkilən Elandağ İlandağa şamil edilir. Azərbaycan folklor nü-

munələrində ilan müxtəlif cür təsvir edilir. Bəzi nümunələrdə ilan cildin dəyişir ya qız, ya da oğlan olur, insanların arasında yaşayır (Baxşəliyev, 2004: 59).




**Şəkil 5.** Gəmiqayada ilan və keçi rəsmləri (Baxşəliyev, 2004)

Ya da ilan cildini dəyişərək məleykə donuna düşür, onu öldürəndə adama zəfər toxunur (Baxşəliyev, 2004: 12). Mərcanların ilandan əmələ gəldiyi də folklor nümunələrimizdən birində qeyd olunur (Baxşəliyev, 2004: 10). Ümumiyyətlə, ilan Naxçıvan tayfalarının təsəvvürlərində qüdrətli bir simvol olmuşdur.



**Şəkil 6.** Gəmiqayada it rəsmi (Baxşəliyev, 2004)

Gəmiqaya rəsmlərindəki heyvan obrazlarından biri olan it təsvirləri ilə bağlı inanclar Naxçıvanın qədim əkinçi-maldar tayfaları arasında geniş yayılmışdır. İndinin özündə belə it insana yaxın, sədaqətli heyvan kimi dəyərləndirilir. İtin kəllə sümüyündən nəzər qoruyucu kimi istifadə edilir. Təkcə Gəmiqaya rəsmlərində deyil (Şəkil 6), həmçinin Əshabi-Kəhf ibadətgahı yaxınlığındakı Qırtmır adı ilə tanınan itin qəbri, I Kültəpə eneolit dövrü yaşayış yerində evin içərisində adamla yanaşı itin də qəbirdə dəfn olunması bu inamın dərin köklərindən xəbər verir.

Naxçıvan ərazisinə aid ən qədim quş təsvirləri Erkən Tunc dövrünə aid edilir və Gəmiqaya qayaüstü rəsmlərində rast gəlinmişdir (Şəkil 7). Abidənin ən çox rəsm olan hissəsi də quşla bağlı olaraq Qaranquş yaylağı adlandırılmışdır. Quş rəsmləri Gəmiqayadakı erkən təsvirlər sırasında qeyd olunur. Arxeoloq Vəli Baxşəliyevin fikrincə qaranquş təsviri Gəmiqaya rəsmlərinin ən erkən təsvirlərindən biri hesab edilməlidir (Baxşəliyev, 2004: 291). O, bu təsviri təqribən e.ə. IV minilliyə aid etmişdir (Şəkil 6, 2). Qaranquş inanclara görə xeyirxah əməli ilə insanların həyatını təmin edir. Buna görə də bu quş müqəddəsləşdirilmişdir. Bu inanc "Qaranquş və ilan" əfsanəsində əks olunmuşdur (Əfsanələr, 1986: 71).




**Şəkil 7.** Gəmiqayada quş təsvirləri (Baxşəliyev, 2004)

Gəmiqaya təsvirlərindəki quş rəsmləri müxtəlif məzmun ifadə etməklə müəyyən dərəcədə ovçuluq və heyvandarlıq mifləri ilə də bağlı olmuşdur. Quş təsvirləri arasında qədim dövrə aid edilə biləcək rəsmlərdən biri qaranquş təsviridir. Bu təsvir Dəlibulağın cənub tərəfində yerləşən böyük qaya parçasının üzərində arxeoloq Vəli Baxşəliyevin apardığı araşdırmalar zamanı aşkar olunmuşdur. Bu təsvirin bənzərlərinə Tunc dövrünə aid maddi mədəniyyət nümunələri üzərində rast gəlinmişdir. Lakin təsvirin başdan-başa mamırla örtülməsi onun qədim tarixə malik olduğunu göstərir. Yuxarıda qeyd etdiyimiz kimi, xalq arasında qaranquşla bağlı xeyli inanclar vardır. Qaya təsvirlərinin toplandığı əsas bölgənin də Qaranquş yaylağı adlandırılması, bizcə, təsadüfi deyildir. Qaranquş təsviri Gəmiqaya rəsmlərinin ən erkən təsvirlərindən biri hesab edilməlidir. Bu təsviri təqribən e. ə. IV minilliyə aid etmək olar (Şəkil 6, 2). Qayalıqlar üzərində rast gəlinən kəklik rəsmləri də bu inanclarla bağlıdır. Ular kəklik indi də Ordubad rayonunda müqəddəs quş hesab edilir (Əliyev, 1993: 80). Kəklik rəsmlərinə Nəbiyurdunda və Qaranquş yaylağında rast gəlinmişdir. Quş rəsmləri arasında kəklik maraqlı təsvirlərdəndir. Folklor nümunələrimizdə də geniş rast gəlinən kəklik Ülkəklik, Ular kəklik, Ur kəklik də adlandırılır. Bu da lokal xüsusiyyət daşıyaraq Ordubad zonasına aiddir.

Araşdırmalara əsaslanaraq demək olar ki, Gəmiqaya rəsmlərində heyvan obrazları üstünlük təşkil etməsi həm insanların həyat tərzi, xüsusilə ovçuluq və maldarlıq kimi məşğuliyyət sahələrinin inkişaf etməsi, həm də yurdumuzun qədim sakinlərinin ideoloji görüşləri ilə bağlı olmuşdur. Rəsmlərin semantik məzmunun araşdırılması onların dərin mifoloji məzmuna malik olduğunu təsdiq edir.

## ƏDƏBİYYAT

1. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 316 с.
2. Azərbaycan Mifoloji Mətnləri. Bakı: Elm, 1988, 196 s.
3. Baxşəliyev V.B. Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti. Bakı: Elm, 2004, 320 s.
4. Əliyev V. Gəmiqaya. Bakı: Əbilov, Zeynalov və oğulları, 2005, 248 s.
5. Əfsanələr. Bakı: Yazıçı,1986, 72 s.
6. Əliyev. V. Gəmiqaya abidələri. Bakı: Azərnəşr, 1993, 80 s.
7. İsmayıl Məhsəti. Xalq yaddaşının izləri. Bakı: Elm, 2005, 142 s.
8. Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı: Yazıçı, 1983, s. 398 s.
9. Tuncay Bəxtiyar. Azərbaycan türklərinin əski mifik təsəvvürlərinin, folklorunun və bəzi adətlərinin "Bilqamıs" dastanındakı izləri. https://bextiyartuncay.wordpress. com /2012/02/13/ azərbaycan-turklərinin-əski-mifik-təsəvvurlərinin-folklorunun-və-bəzi-adətlərinin-bilqamis-dastanindaki-izləri/ s. 7-9.

***Физзе Гулу кызы Кулиева***

## СЕМАНТИЧЕСКОЕ СОДЕРЖАНИЕ ОБРАЗА ЖИВОТНЫХ НА НАСКАЛЬНЫХ ИЗОБРАЖЕНИЯХ ГЕМИГАЯ

### *РЕЗЮМЕ*

Среди наскальных изображений Гемикая преобладают рисунки козла, птицы, змеи, собаки, быка и другие крупнорогатые скота. Схематичные или же реалистические рисунки изображены различной техникой, а обычно толчением. Рисунки первой группы изображены схематично. Они напоминают бабочкообразные рисунки расписных сосудов эпохи средней бронзы. Рисунки второй группы изображены очень реалистично. Рисунки козлов встречаются особенно много. Козлы, изображенные на Гемикая в определенной степени аналогичны изображениями Кобустана. Несомненно, что они изображали козла типа безоар. Преобладание рисунков животных показывают, что животноводство было основных из занятий древних поселенцев.

На Гемикая рисунки змеи встречаются по одиночке, парой и в композиции. Исследования показывают, что среди древних поселенцев Нахчывана было широко распространено верование змеи. И поэтому змея являлся одним из тотемов Нахчыванских племен. Следы этого верования встречается также на бытовых предметах, в том числе керамических изделиях и украшениях. Изображения змей в древнем Эламе и Египте считался символом плодородия. В фольклорных образцах Нахчывана и в настоящее время имеются многочисленные материалы, отражающие верования к змею. На юге Гемикая, среди населения долины Гиланчай сохранились мифологические предания, связанные с Иландагом. Исследователи идентифицируют легенду Иландаг с шумерскими легендами. Шумерская Эландаг идентифицируется с Иландагом.

Изображения собак Гемикая также являются широко распространенным верованием земледельце-скотоводческих племен Нахчывана. И в настоящее время собака оценивается как близкий и преданный друг человека. Череп человека используется как предохранительное средство от дурного глаза. Изображения Гемикая, могила собаки на святилище Асхаби-Кеф и погребения собаки на неолитическом поселении Кюльтепе I показывает, что верование имеет древние корни.

Среди наскальных изображений широко распространены также сцены, связанные с магией. При этом особое внимание привлекает закрывание рота волка. Цель этой магии предохранить домашних животных от диких зверей, в том числе и от волка.

Исследования позволяют сказать, что на наскальных изображениях Гемикая отображены идеологические представления древних людей.

***Fizze Qulu gizi Guliyeva***

## THE SEMANTIC MAINTENANCE OF THE IMAGE OF ANIMALS ON ROCK DRAWINGS GEMIKAYA

### *SUMMARY*

Among rock drawings Gemikaya drawings of a goat, bird, snake, dog, bull and others cattle breading prevail. Schematically or realistic drawings are represented by various equipment, and usually smithery. Drawings of the first group are represented schematically. They remind butterfly-shaped drawings of painted vessels of Middle Bronze Age. Drawings of the second group are represented is very realistic. Drawings of goats meet especially much. The goats represented on Gemikaya to some extent are similar images of Kobustan. It is undoubted that they represented a goat like bezoar. Prevalence of drawings of animals is shown that the animal husbandry was the main of occupations of ancient settlers.

On Gemikaya, drawings of a snake meet on the single, couple and in composition. Researches show that among ancient settlers of Nakhchivan belief of a snake was widespread. Therefore a snake I was one of totems of Nakhchivan tribes. Traces of this belief meets also on household objects, including pottery and jewelry. Images of snakes in ancient Elam and Egypt was considered as a fertility symbol. In folklore samples of Nakhchivan and now there are numerous materials reflecting beliefs to a dragon. In the south Gemikaya, among the population of the valley Gilanchay the mythological legends connected with Ilandag have remained. Researchers identify a legend of Ilandag with Sumer legends. Sumer Elandag is identified with Ilandag.

Images of dogs Gemikaya are also widespread belief the farmer - the cattle breeding tribes of Nakhchivan. Now the dog is estimated as the close and transferred friend of the person. The skull of the person is used as a preservative from an evil eye. Images Gemikaya, a grave of a dog on a sanctuary Askhabi-Kef and burials of a dog on the Neolitic settlement shows to Kultepe I that belief has ancient roots.

Among rock drawings also the scenes connected with magic are widespread. At the same time, the special attention is drawn by closing a company of a wolf. The purpose of this magic to protect pets from wild animals including from a wolf.

Researches telling that on rock drawings Gemikaya ideological representations of ancient people are displayed.